2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 04 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 24 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlunun 85 saylı Şamaxı seçki dairəsinin 12 saylı seçki məntəqəsində Şəhriyar bələdiyyəsinə keçirilən səsvermənin Seçki Məcəlləsinin tələblərinə zidd keçirildiyini, məntəqə seçki komissiyasının sədri tərəfindən səslər hesablanarkən qanunvericiliyin tələblərinin pozulmasının və müşahidəçilərin zaldan çıxarılmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 04 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə görə seçki komissiyasına seçkilərin gedişi zamanı səsvermə günü və yaxud növbəti gün daxil olan şikayət üzrə qərar dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 85 saylı Şamaxı seçki dairəsindən Şəhriyar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Natiq Məmməd oğlunun seçki günü həmin seçki dairəsinin 12 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 04 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov